# Fərdi yaradıcılıq sərgisi açılıb



**Mayın 17-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Əməkdar rəssam Həmzə Sadiqovun 75 illiyi münasibətilə fərdi yaradıcılıq sərgisi açılıb.**

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş "Rənglərin harmoniyası" adlı sərgidə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva rəssamın həyat və yaradıcılığından bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Anar İbrahimov yubilyarı təbrik edərək bildirib ki, Əməkdar rəssam Həmzə Sadiqovun taleyi, həyatı həmişə vətənə bağlı olub. Bunu təkcə yaradıcılığında deyil, çalışdığı vəzifələrdə, fəaliyyətində də hər zaman sübut edib.

Həmzə Sadiqovun ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin davamlı inkişafı, xalqımızın rifahı naminə apardığı mübarizənin ön cərgələrində olduğunu diqqətə çatdırdığını deyən Anar İbrahimov Sədərək döyüşlərindəki fədakarlıqlarını yüksək qiymətləndirib. Həmzə Sadiqovun yaradıcılığını təhlil edən Ali Məclisin sədr müavini Əməkdar rəssamın realizm üslubunda yaratdığı əsərlərin Naxçıvana yeni bir baxışla baxmağa böyük imkan yaratdığını bildirib. Anar İbrahimov rəssamın yaradıcılığından hələ çox gəncin ilham alacağına əminliyini ifadə edib, Həmzə Sadiqova yeni yaradıcılıq uğurları arzulayıb.

Əməkdar rəssam Həmzə Sadiqov əməyinə verilən diqqətə görə minnətdarlıq edib və tədbirin ona yeni yaradıcılıq stimulu verdiyini bildirib. Sonra sərgiyə baxış olub.

Sərgidə Əməkdar rəssam Həmzə Sadiqovun müxtəlif janrlarda ərsəyə gətirdiyi 60-a yaxın əsəri nümayiş olunub. Əsərlərdə Naxçıvan motivi üstünlük təşkil edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 18 may. № 103.- S.16.